# Azərbaycan - Çin münasibətləri

**Qısa tarixi məlumat:**

Çin 27 dekabr 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanımışdır. Azərbaycan ilə Çin arasında diplomatik münasibətlər 2 aprel 1992-ci ildə qurulmuşdur. 1992-ci ilin avqust ayında ÇXR-in Azərbaycan Respublikasında Səfirliyi açılmış, 1993-cü ilin dekabr ayının 1-də isə ilk səfir təyin edilmişdir. 1993-cü ilin 3 sentyabr tarixində Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Çin Xalq Respublikasında Səfirliyinin açılması barədə qərar qəbul etmişdir. Həmin tarixdən Azərbaycan Respublikasının Çin Xalq Respublikasında ilk səfiri təyin edilmişdir. Hal-hazırda Azərbaycan Respublikasının ÇXR-dəki səfiri Lətif Qəndilovdur.

**Yüksək səviyyəli qarşılıqlı səfərlər:**

**Dövlət başçıları:**

7-10 mart 1994-cü il – Prezident H.Əliyevin rəsmi səfəri
17-19 mart 2005-ci il – Prezident İ.Əliyevin rəsmi səfəri
8 avqust 2008-ci il – Prezident İ.Əliyevin XXIX Pekin Yay Olimpiya Oyunlarının təntənəli açılış mərasimində iştirak etmək məqsədilə səfəri

**Hökumət başçıları:**

Qarşılıqlı səfərlər olmamışdır.

**Parlament sədrləri:**

Dekabr 1996-cı il və aprel 2002-ci il - Azərbaycan Respublikası Milli Məclisinin sədri Murtuz Ələsgərovun səfəri.

Iyun 2000-ci il - Ümumçin Xalq Nümayəndələri Yığıncağı (ÜXNY) Daimi Komitəsinin sədri Li Penin səfəri

**Nazirlər:**

Oktyabr 2000-ci il – AR Xarici İşlər Naziri Vilayət Quliyevin səfəri
May 2000-ci il – AR Müdafiə Naziri Səfər Əbiyevin səfəri
İyun 2002-ci il – AR Təhsil Naziri Misir Mərdanovun səfəri
Aprel 2004-cü il – AR Daxili İşlər Naziri Ramil Usubovun səfəri
Fevral 2005-ci il – AR Xarici İşlər Naziri Elmar Məmmədyarovun səfəri

Sentyabr 2005-ci il – AR Milli Təhlükəsizlik Naziri Eldar Mahmudovun səfəri
Oktyabr 2004-cü il – ÇXR Xarici İşlər Naziri Li Çjaosinqin (Li Zhaoxing) səfəri
22-26 oktyabr 2006-cı il – AR Ədliyyə Naziri Fikrət Məmmədovun səfəri
9-16 noyabr 2006-cı il – AR Sənaye və Energetika Naziri Natiq Əliyevin səfəri
16-17 may 2010-cu il – Çin Xalq Respublikasının Xarici İşlər Naziri Yanq Cieçı Azərbaycanda tranzit səfəri
14-15 sentyabr 2011-ci il – AR Rabitə və İnformasiya Texnologiyaları Naziri Əli Abbasovun səfəri
11-16 iyun 2012-ci il – AR İqtisadi İnkişaf Naziri Şahin Mustafayevin səfəri
26-28 iyun 2012-ci il – AR Ədliyyə Naziri Fikrət Məmmədovun səfəri
1-13 sentyabr 2012-ci il – AR Rabitə və İnformasiya Texnologiyaları Naziri Əli Abbasovun səfəri

**Parlamentlərarası əlaqələr:**

Azərbaycan-Çin parlamentlərarası işçi qrupu fəaliyyət göstərir. Qrupun rəhbəri YAP-ın Sədr müavini Əli Əhmədovdur.
Çin-Azərbaycan Parlamentlərarası Dostluq qrupu fəaliyyət göstərir. Qrupun rəhbəri Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin Xarici işlər üzrə Komitəsinin sədri Li Caosindir (Li Zhaoxing) (ÇXR-in sabiq Xarici İşlər Naziri).

**Müqavilə-hüquq bazası:**

Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında 44 sənəd imzalanmışdır.

Link: www.azerembassy.org.cn

*Son yenilənmə tarixi: 25.02.2013*